


# Xocalım yad əlində, mən isə savaşdayam...

Mən balaca şəhidəm, anamın qucağında,
Hələ də közərirəm Xocalı ocağında...

"Ya Allah" deyib hərdən ətrafa boylanıram,
Yenə ocağa düşüb alışıram, yanıram...

Anam da daşa dönüb, fəryad çəkmir, ağlamır,
Elə əlində tutub, heç məni qucaqlamır...

Amma yaxşı duyuram mən onun nəfəsini,
Hardansa uzaqlardan eşidirəm səsini...

Ana səsi olsa da, layla deyil, nalədir,
Yüksəklikdən tökülən bir şaqraq şəlalədir...

Bu səs nəyimə gərək, mən layla istəyirəm,
Yuxu getmir gözümə, illərdir gözləyirəm...

Qulağımda gurlayır top səsi, tüfəng səsi,
Bu hay-küyə qarışır "Qarabağ şikəstəsi"...

Ölməmişəm mən, amma çevrilmişəm bir daşa,
Bir az bənizim solub, bir az dolmuşam yaşa...

Daha uşaq deyiləm, indi əsgər yaşdayam,
Xocalım yad əlində, mən isə savaşdayam...

Anamın qucağından alın, düşürdün məni,
Həm anamı qoruyum, həm müqəddəs Vətəni...

*Məzahir SÜLEYMANZADƏ*

Azərbaycan.- 2019.-26 fevral.- S.8.